**Son illər Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatlar nəticəsində makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadi artımın davamlılığı təmin edilib, şəhər və kəndlərimizin siması büsbütün dəyişib, əhalinin gəlirlərinin artırılmasına və rifahının yaxşılaşdırılmasına nail olunub. Bu müsbət prosesləri Suraxanı rayonunun timsalında da aydın görə bilərik.**






# SURAXANI: quruculuğun yeni mərhələsi

## Rayonun inkişafı diqqət mərkəzindədir

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda sosial-iqtisadi siyasətin yüksək səviyyədə reallaşdırılması sayəsində 2018-ci ildə rayonda qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib.



Dövlət başçısı ötən il ərzində iki dəfə Suraxanıya gəlib, may ayının 22-də Qaraçuxur qəsəbəsində "ATEF Şirkətlər Qrupu" MMC tərəfindən inşa edilən yüksək gərginlikli avadanlıqlar zavodunun işə salınması, dekabrın 27-də isə Hövsan qəsəbəsində Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışı mərasimlərində iştirak edib. Bu, ölkə rəhbərinin ulu öndər Heydər Əliyevin ənənəsinə sadiq qalaraq rayonun sosial-iqtisadi inkişafını daim diqqət mərkəzində saxladığını bir daha təsdiqləyib, eyni zamanda, hər bir suraxanılının xatirəsində silinməz iz qoyub.

## Yüksək göstəricilər sosial-iqtisadi yüksəlişdən xəbər verir

Respublikamızda gerçəkləşdirilən davamlı iqtisadi siyasət nəticəsində Suraxanının sosial-iqtisadi həyatında inkişaf təmin olunub, sosial infrastruktur və əhalinin həyat səviyyəsi daha da yaxşılaşıb. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes mühitinin yaradılması, sənayeləşmənin diqqət mərkəzində saxlanılması rayonda istehsal potensialının güclənməsini, yeni istehsal sahələrinin işə salınmasını, məşğulluq səviyyəsinin artırılmasını sürətləndirib. Bütün bunlar isə inkişafın əsas göstəricisi olan ümumdaxili məhsulun artımında öz əksini tapıb.

Ötən il Suraxanıda sənaye məhsulunun istehsalı 450,4 milyon manat, tikinti-quraşdırma işləri 122,5 milyon manat, nəqliyyat xidmətləri 11 milyon manat, pərakəndə ticarət dövriyyəsi 1175,2 milyon manat olub, orta aylıq əməkhaqqı 578 manat təşkil edib, əhaliyə 240,6 milyon manat məbləğində ödənişli xidmətlər göstərilib, rayona 118,7 milyon manat investisiya yönəldilib, 3997 yeni iş yeri açılıb.

## Tikinti – quruculuq işləri sakinlərdə məmnunluq yaradır

Son illər rayonda tikinti-quruculuq işləri çərçivəsində xeyli iş görülüb. Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan və təməli 2017-ci il dekabrın 24-də dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən qoyulan Hövsan Yaşayış Kompleksində binaların tikintisi işləri davam etdirilib.

Rayonda mənzil fondunun qorunub saxlanılmasına xüsusi önəm verilib, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib. Məsələn,



Qaraçuxur, Bülbülə, Hövsan, Zığ qəsəbələrindəki binalarda ümumilikdə 51 min kvadratmetr dam örtüyü təmir edilib, girişlər əsaslı təmir olunub, fasad hissələr rənglənib, pilləkən qəfəslərində pəncərələr dəyişdirilib, tüstü bacaları təmizlənib.

Həyata keçirilən müvafiq proflaktik tədbirlər və təmir işləri ilə yanaşı, müxtəlif diametrli 21 min poqonometr su, 1140 poqonometr kanalizasiya, 5490 poqonometr istilik, 6000 poqonometr qaz, 5750 metr elektrik xətləri çəkilib, 3 ədəd KTM, 2526 ədəd su, 8554 ədəd elektrik, 7995 ədəd qaz sayğacı quraşdırılıb. Görülən işlər nəticəsində rayon əhalisinin 100 faizi elektrik enerjisi, 98 faizi məişət qazı, 97 faizi su ilə təmin olunub.

Hazırda rayonun dövlət mənzil fonduna aid 384 çoxmərtəbəli yaşayış binasından 294-ü (76,6 faiz), MTK-lara məxsus 50 yaşayış binasından 44-ü istiliklə təmin edilir. Göründüyü kimi, bu sahədə vəziyyət getdikcə yaxşılaşır. Belə ki, əgər 2005-ci ildə Suraxanıda 225 yaşayış binasına istilik verilirdisə, hazırda belə binaların sayı 1,5 dəfə artaraq 338-ə çatdırılıb.

Qaraçuxur qəsəbəsi, Etibar Bəkirli küçəsində 580 poqonometr yeni kanalizasiya xətti çəkilərək 22 ədəd baxış quyusu qoyulub, 3 hektara yaxın ərazi qamışlıqdan təmizlənib, suvarma şəbəkəsi qurularaq 1550 kvadratmetr yaşıllıq salınıb.

Qaraçuxur qəsəbəsində Neftçilər parkının əsaslı təmiri işləri davam etdirilib, Milli Qəhrəman Cavanşir Rəhimovun büstünün ətraf ərazisi yenidən qurulub, 14 min kvadratmetr yaşıllıq salınıb, mövcud ağaclar budanıb, yeni ağaclar əkilib, su xətti çəkilib.

Ümumi sahəsi 470 kvadratmetr olan uşaq, 150 kvadratmetr idman, 400 kvadratmetr mini-futbol meydançaları, ümumi uzunluğu 800 metr olan "Velotrek" istifadəyə verilib, ahılların istirahəti üçün "Veteranlar guşə"si tikilib, 120 ədəd işıq dirəyi, yeni Transformator Məntəqəsi, 2 ədəd söhbətgah, 65 ədəd oturacaq quraşdırılıb.

Yararsız və ya qəzalı vəziyyətdə olan tikililərdə yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının sökülərək yerində yenilərinin inşa edilməsi proqramına uyğun olaraq "Etibarlı" MTK tərəfindən Qaraçuxur qəsəbəsi, Əhməd Mehbalıyev küçəsi, 34 və 36 ünvanlarında ikimərtəbəli 16 mənzilli evlərin yerində inşa edilən 12 və 14 mərtəbəli yaşayış binalarında hazırda son tamamlama işləri görülür.

Bundan əlavə, ötən il ərzində özəl şirkətlər tərəfindən Yeni Günəşli "D", "V" və "AB" yaşayış sahələrində, Zığ, Qaraçuxur qəsəbələrində çoxmənzilli yaşayış binalarının inşası davam etdirilib.

Bu gün ölkəmizdə yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələr uğurla icra olunur. Ölkə rəhbəri bütün sahələrlə yanaşı, yolların tikintisini də prioritet məsələ kimi daim diqqətdə saxlayır. Bu məsələyə Suraxanıda da mühüm önəm verilir.



Rayonun qəsəbə və məhəllədaxili yollarında Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 77 min kvadratmetr, eləcə də MKTB tərəfindən 8 min kvadratmetr olmaqla, ümumilikdə, 85 min kvadratmetr asfalt örtüyü salınıb, Zığ dairəsi-Beynəlxalq Hava Limanı avtomobil yolundan Zığ qəsəbəsinə çıxış üçün qovşaq istifadəyə verilib, Zığ-Hövsan avtomobil yolunun yenidən qurulması və yolların ətrafının abadlaşdırılması proqramı davam etdirilib. Qaraçuxur qəsəbəsi, Fərman Kərimzadə küçəsinin Babək prospekti ilə kəsişməsində yol kənarında piyada səkiləri bərpa olunub, bordürlər dəyişdirilib, habelə yaşıllaşdırma işi aparılıb.

Hazırda küçələrdə müasir tələblərə cavab verən yeni avtobus dayanacaqları quraşdırılır, yararsız olanlar isə yeniləri ilə əvəzlənir.

## Təhsil və səhiyyənin inkişafına qayğı ilə yanaşılır

Son 15 ildə rayonda 5920 şagird yerlik 7 məktəb binası, 14 məktəb üçün 7340 şagird yerlik 17 əlavə tədris korpusu tikilib, 27 min 292 şagird yerlik 24 məktəb binası əsaslı təmir olunub.

"Bakı şəhəri və onun qəsəbələrində təhsil müəssisələrinin təmiri və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin 23 may 2018-ci il tarixli sərəncamına uyğun olaraq Qaraçuxur qəsəbəsində Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın tədris korpusunda və yataqxana binasında əsaslı təmir işləri aparılıb, ərazisi abadlaşdırılıb.

Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilən "Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na əsasən, Gənclər və İdman Nazirliyinin sifarişi əsasında rayonun Yeni Günəşli "D" yaşayış sahəsində tikilən şahmat məktəbinin açılışı olub. Qaraçuxur qəsəbəsi, Yeni Günəşli "D" yaşayış sahəsində yerləşən 2 nömrəli Uşaq evinin yeməkxana kompleksində isə yenidənqurma işləri aparılıb.

Rayonda səhiyyənin inkişafına sosial siyasətin prioritet istiqamətlərindən biri kimi yanaşılır. Elə buna görə də ötən il ərzində bu sahədə bir sıra tədbirlər həyata keçirilib, 23 nömrəli şəhər poliklinikasının Hövsan kənd filialı, Yeni Günəşlidə xüsusi qayğıya ehtiyacı olan uşaqların dövlət reabilitasiya müəssisəsi əsaslı təmir olunub, "AB" yaşayış sahəsində özəl klinikanın tikintisi davam etdirilib.

## Ekoloji vəziyyət yaxşılaşdırılır

Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illər paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılması, yeni yaşıllıq zolaqlarının salınması istiqamətində mühüm tədbirlər reallaşdırılır. Ölkənin hər yerində olduğu kimi, Suraxanıda da yeni yaşıllıqların salınması istiqamətində görülən işlər sürətləndirilir.

Ötən il ərzində yaşıllaşdırma və ətraf mühitin sağlamlaşdırılması tədbirləri davam etdirilib, 13 ümumrayon iməciliyində 6713 ədəd ağac əkilib, neft əməliyyatı şirkətləri tərəfindən ümumi sahəsi 7,9 hektar olan müxtəlif ölçülü 96 gölməçə qurudulub, lay suları, habelə neftlə çirklənən 28 hektar torpaq sahəsi təmizlənərək texniki rekultivasiya olunub.

Ağacəkmə aksiyalarında tanınmış ziyalılar, elm, idman, incəsənət, mədəniyyət sahəsində çalışan tanınmış şəxslər də fəal iştirak ediblər.

Davamlı şəkildə həyata keçirilən ağacəkmə aksiyaları nəticəsində rayonun ərazisi abadlaşır, yaşıllıqlarla zənginləşir, ekoloji mühit sağlamlaşır, torpaq qatı münbitləşir.



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü və Bakı şəhəri üzrə rayon icra hakimiyyətlərinin dəstəyi ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönələn "Bizim həyət" layihəsinə uyğun olaraq, Hövsan qəsəbəsi, Elman Qasımov küçəsi 15, 15A, 15B, 15V saylı ünvanlarda 1942 nəfər sakinin yaşadığı məhəllə abadlaşdırılaraq ötən il dekabrın 27-də sakinlərin istifadəsinə verilib.

"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan, 13 min kvadratmetr sahəsi olan həyətdə 2660 poqonometr bordür düzülüb,1730 kvadratmetr tamet daşı döşənib, əlil və sağlamlıq imkanları məhdud insanların da rahat hərəkəti nəzərə alınmaqla, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə 200 kvadratmetr ərazidə uşaq oyun elementləri, 300 kvadratmetr minifutbol və basketbol, ümumi sahəsi 155 kvadratmetr olan iki idman meydançası salınıb, yaşlı sakinlər üçün ahıllar guşəsi tikilib, 4 ədəd söhbətgah quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, binaların fasadları və giriş hissələri də tam təmir olunaraq onların istifadəsinə verilmişdir. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac və kol əkilib, 3 min kvadratmetr ərazidə yaşıllıq salınıb. Həmçinin sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə 8 ədəd müşahidə kamerası quraşdırılıb.

Bundan əlavə 4 ünvanda-- Qaraçuxur qəsəbəsi, 4042/60-cı məhəllədə 1 saylı, 3 saylı və 4 saylı, Yeni Günəşli "Q" yaşayış sahəsində 9 və 10 saylı binaların həyətləri abadlaşdırılıb, həmin məhəllələrdə asfalt örtüyü salınıb, səki daşları düzülüb, binanın girişləri və pilləkən qəfəsləri əsaslı təmir edilib, sakinlərin istirahəti üçün söhbətgahlar, oturacaqlar, müasir idman qurğuları, uşaq oyun elementləri quraşdırılıb.

## Vətəndaş müraciətlərinə həssas münasibət

Vətəndaşların müraciətlərinə, onların problemlərinin həllinə diqqət daha da artırılıb, ötən il ərzində rayon icra hakimiyyətinə 4568 vətəndaş müraciəti daxil olub, müraciətlərin 1283-ü müsbət, 31-i qismən həll edilib, 2683-nə müvafiq izahat verilib, 29-nun icrası dövlət proqramlarında nəzərdə tutulan, 371-i isə baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilib.

2018-ci ildə rayon icra hakimiyyətinin başçısı tərəfindən 714 nəfər vətəndaş qəbul edilib, 1420 nəfərin iştirakı ilə 44 səyyar görüş-qəbul keçirilib. Vətəndaşların müraciətlərində və qəbullarda fərdi yaşayış evlərinin tikintisi və söküntüsü, mənzillə təmin olunma, evlərin, mənzillərin, torpaq və bağ sahələrinin sənədləşdirilməsi, maddi yardım edilməsi, torpaq sahələrinin ayrılması, küçələrin asfaltlanması, işıqlandırılması, su və kanalizasiya şəbəkələrinin qurulması, torpaq sürüşməsi-çökməsi zonasında yerləşən evlər barədə tədbir görülməsi və digər mövzularla bağlı məsələlər qaldırılıb.

Müntəzəm yenilənən rayon icra hakimiyyətinin internet saytı, elektron poçt ünvanı, "Qaynar xətt" telefonu fasiləsiz fəaliyyət göstərib, yerlərdə "Şikayət və təkliflər" səyyar poçt qutuları quraşdırılıb, elektron poçt ünvanına daxil olan 342 elektron məktub cavablandırılıb.

## Əhalinin sosial müdafiəsi getdikcə gücləndirilir

Rayon əhalisinin sosial müdafiəsinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılıb, ötən il ərzində Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi tərəfindən 10280 nəfərə 9,6 milyon manat məbləğində sosial müavinət, 29,2 min nəfərə 84,4 milyon manat pensiya ödənilib, rayon üzrə orta pensiyanın məbləği 421 manat təşkil edib, 166 nəfər tənha, əlil vətəndaşa evlərində sosial xidmət göstərilib, 80 nəfər istirahət və müalicə mərkəzlərinə göndərilib.

Rayon Məşğulluq Mərkəzinə müraciət edən 1764 nəfərdən 627-si işlə təmin olunub, 76 nəfər peşə hazırlıq kurslarına göndərilib, 95 nəfər özünüməşğulluq proqramı üzrə təlimləri başa vuraraq biznesin qiymətləndirilməsi mərhələsindən keçib, 53 nəfər isə aktivlərlə təmin olunub.

Azərbaycan Prezidentinin tapşırığına əsasən, 2018-ci ildə 1215 nəfər işsiz vətəndaş haqqı ödənilən ictimai faydalı işlərə cəlb edilib. Onların iştirakı ilə rayonda geniş abadlıq-təmizlik işləri aparılıb.

2019-cu ildə "DOST İŞ Mərkəzi" MMC tərəfindən təqdim olunacaq 905 nəfər işsiz şəxsin müvafiq istiqamətlər üzrə haqqı ödənilən ictimai işlərə cəlb olunması nəzərdə tutulub və həmin işlərə artıq başlanılıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən 2018-ci ilin avqust və noyabr aylarında rayonda məskunlaşan 62 məcburi köçkün ailəsi onlar üçün tikilən binalara köçürülüb.

## Dost gəlişi bayram olur...

Estoniya Respublikasının Tallinn şəhərinin Kristiyne rayonunun başçısı Yaanus Riybenin dəvəti ilə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və Milli Məclisin deputatı, Azərbaycan – Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Hacı Salayev 2018-ci ilin oktyabrında Azərbaycan və Estoniya respublikalarının müstəqilliyinin 100 illiyi münasibətilə, iki xalq arasında tarixi əlaqələrin, Suraxanı və Kristiyne rayonu arasında dostluğun simvolu olaraq Tallində Azərbaycan – Estoniya dostluq parkının açılışında iştirak ediblər.



Səfər çərçivəsində keçirilən görüşlər zamanı Azərbaycan Prezidentinin rəhbərliyilə ölkəmizdə reallaşdırılan iqtisadi islahatlar, aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri haqqında geniş məlumat verilib, Suraxanı və Kristiyne rayonları arasında perspektiv əməkdaşlıq imkanları müzakirə edilib.

Ötən il oktyabrın 16-da Latviya Bələdiyyələr İttifaqının sədri Gints Kaminskisin rəhbərlik etdiyi nümayəndə heyəti, həmin ayın 26-da isə VI Beynəlxalq Humanitar Forumda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Estoniya nümayəndə heyəti Suraxanıda olublar. Keçirilən görüşlərdə fikir mübadiləsi aparılıb, perspektiv əməkdaşlıq imkanları müzakirə edilib, qonaqlar rayonun Heydər Əliyev Mərkəzi, Heydər Əliyev parkı, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olublar.

Latviya Respublikasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan "Uguntina" rəqs qrupu noyabrın 22-də rayonun Qurban Abbasov adına mədəniyyət sarayında konsert proqramı ilə çıxış edib.

## Heydər Əliyev ideyaları tərəqqinin əsas şərtidir

Suraxanı Rayonu Heydər Əliyev Mərkəzinə ziyarətə gələnlər ümummilli lider Heydər Əliyevin zəngin irsi ilə tanış olmaq, əyani vəsaitlərdən istifadə etmək imkanı qazanırlar.

Mərkəzin fəaliyyətilə indiyədək 100 minə yaxın yerli və xarici ziyarətçi tanış olub, burada yerləşən elektron kitabxananın xidmətindən 17 mindən artıq istifadəçi faydalanıb. Burada müxtəlif mərkəzi icra hakimiyyəti orqanları, ali təhsil müəssisələri, elmi-tədqiqat institutları ilə birgə 2009-cu ildən bəri 259 tədbir keçirilib.

Mərkəzin imkanlarından faydalanan rayon məktəbliləri davamlı olaraq bura gəlir, ulu öndərin həyat və fəaliyyətini əks etdirən çoxsaylı eksponatlarla yaxından tanış olur, elektron auditoriyalarda ümummilli liderin həyatından bəhs edən filmlərə tamaşa edirlər.

Rayon icra hakimiyyəti və Suraxanı Rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə burada ayda bir dəfə tədris olunmaqla "Heydər Əliyev və müasir Azərbaycan tarixi" mövzusunda 9-11-ci sinif şagirdlərinə açıq dərs keçirilir. Bütün mövzular xüsusi hazırlanan animasiya, foto, video materiallarla diqqətə çatdırılır.

AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu ilə razılaşmaya əsasən, mərkəzdə 2017-ci ilin sentyabr ayından başlayaraq bu elmi-tədqiqat müəssisəsinin alimləri I qrup ixtisaslarını seçən, xüsusi istedadı ilə fərqlənən, aztəminatlı və məcburi köçkün ailələrindən olan 15 şagirdə ali məktəbə qəbul proqramına uyğun olaraq kimya fənnindən məşğələlər keçirlər.

***

Bu gün Suraxanı rayonunun simasını gözəlləşdirən müxtəlif təyinatlı binaların, park və xiyabanların, küçə və meydanların, təhsil və xidmət obyektlərinin əksəriyyəti məhz son 15 ilin məhsuludur. Suraxanılılar bütün bu inkişaf, onlara göstərilən diqqət və qayğı üçün ölkə Prezidenti cənab İlham Əliyevə sonsuz təşəkkür və minnətdarlıqlarını bildirir, aparılan müdrik, uzaqgörən daxili və xarici siyasət xəttini ürəkdən müdafiə edirlər.

Ötən il ərzində Suraxanıda görülən işlər deməyə əsas verir ki, rayon sakinləri bundan sonra da dövlət başçısı tərəfindən müəyyənləşdirilən vəzifələrin yerinə yetirilməsi, ölkəmizin daha da güclü olması üçün bütün səy və bacarıqlarını səfərbər edəcək, Azərbaycanın daha da qüdrətlənməsi naminə əllərindən gələn səyi əsirgəməyəcəklər.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*